# MÖVZU 1

## FƏNN HAQQINDA ANLAYIŞ.YARANMA TARİXİ,SAHƏLƏRİ.

**Müəssisə xalq təsərrüfatının ilkin bölməsidir: o məhsul istehsali prosesinin həyata keçirdiyi istehsal texniki,sosial və iqtisadi sistemdən ibarətdir.Müəssisə,ictimai tələbatın ödənilməsi və alması məqsədilə,istehsal amillərini birləşdirməklə məhsul istehsal edib satan,islər görüb xidmətlər göstərən huquqi şəxs olan təsərrüfat subyektidir.İqtisadi ədəbiyyatlarda bəzən müəssisə ilə firmanı eyniləsdirirlər.Əslində isə onlar bir birindən fərqlənirlər.Firma termini ümumiləşdirici anlayış kimi istifadə olunur.Firma bir və ya bir necə müəssisədən ibarət ola bilər.Müəssisə dedikdə isə adətən,birprofilli,birməhsullu istehsal nəzərdə tutulur.Firma isguzar müəssisənin təsərrüfat hüquqi vahididir.Sənaye və ya ticarət müəssisələrinin şərti adıdır,onun hüquqi cəhətdən ixtiyarı var ki,təsərrüfat fəaliyyətini öz mülkiyyət məsuliyyəti ilə həyata kecirsin.Firma sifəti ilə müəssisə,təşkilat,idarə və ya ayrı ayrı şəxslər cixiş edə bilər.İqtisadiyyat cəmiyyətin həyat ücün zəruri maddi nemət və xidmətlərlə təmin edən xalq təsərrüfati sahələrinin məcmusu,insanlarin başlica fəaliyyət sahəsidir.Elm tarixində ilk dəfə iqtisadiyyat sözünü,anlayışını qədim yunan alimləri işlətmişlər.O,Ksenofontun(e.ə-430-355)"Ev təsərrüfatı"və ya "Ev iqtisadiyyatı"deyilən əsərinin adından götürülmüş,sonra Aristotel(e.ə384-322)tərəfindən geniş şərh edilmişdir. Yunan sözü olan "Oykonomiya"iki sözdən:"oykos"(ev,təsərrüfat)və"nomos"(qayda,qanun)söz birləşmələrindən yaranmışdır.İqtisdiyyatı öyrənnməbaxımından yanaşıldıq**

**o,mikroiqtisadiyyat,makroiqtisadiyyat,mezoiqtisadiyyat və meqoiqtisadiyyat sahələrinə bölünür.**

**Mikroiqtisadiyyat istehsalın və xidmətin müəssisə,firma səviyyəsində araşdırılması,təşkili və idarə edilməsi deməkdir.**

**Makroiqtisadiyyat-hər bir ölkənin iqtisadiyyatının bütövlükdə öyrənilməsi,araşdırılması və təhlili deməkdir.**

**Mezoiqtisadiyyat-makroiqtisadiyyatın yarımsistemidir;bir biri ilə uzvi baglı sahələr kompleksidir.**

**Meqoiqtisadiyyat-dedikdə,bütovlükdədünya təsərrüfatısistemindəki iqtisadiyyat nəzərdə tutulur.**

**Müəssisənin iqtisadiyyatı- müəssisəni,onu təskil edən bölmələrin fəaliyyətini,idarəetmə və planlaşdırma məsələlərini öyrənir və təhlil edir.Müasir müəssisələrdəki istehsal-təsərrüfat fəaliyyətinin mürəkəbliyi müəssisə iqtisadiyyatını müstəqil elmi fənni kimi ayırmagın zəruriliyini müəyyən etmişdir. İqtisadiyyatindan və onun ayrı ayrı sahələrinin iqtisadiyyatından fərqli olaraq,bu fənn müəssisəsinin fəlayyətinə təsərrüfat rəhbərliyinin kompleks məsələlərinin,istehsal prosesi ünsürlərindən daha yaxşı istifadə etmək məqsədilə bütün ünsürlərin səmərəli əlaqələndirilməsi metodlarının öyrənilməsini qarşısına məqsəd qoyur.**

# MÖVZU 2

# İSTEHSAL MÜƏSSİSLƏRİ İQTİSADİYYATIN ƏSASIDIR.

**İstehsal cəmiyyətin mövcud olması və inkisafı üçün zəruri olan maddi nemətlər hazırlanması və xidmətlər göstərilməsi prosesidir.İstehsal insan həyatının təbii şərti olub,digər fəaliyyət növlərinin də maddi əsasıdır.İstehsal cəmiyyətin inkisafının bütün pillələrində mövcuddur.Cəmiyyətin əldə etdiyi bütün maddi nemətlər və xidmətlər təkrar istehsalin nəticəsidir. İqtisadiyyat-ev təsərrüfatını idarə etmək qabiliyyətdir.İqtisadiyyat-ölkə ərazisində ictimai istehsal,bölgü,mübadilə və istehlak əhatə edən fəaliyyət sferasıdir.İqtisadi münasibətlər cürbəcürdür və sistem halindadir.Bu sistemdə istehsal vasitələri vəistehsalın nəticəsi olan nemətlərin mənimsənilməsi üzrə münasibətlər müəyyənedici rola malikdir. İqtisadiyyat həyat nemətlərinin yaradılması və istifadəsi yolu ilə insanlaın və cəmiyyətin zəruri təlabatlarinin ödənilməsini təmin edən təsərrüfat sistemidir.**

# MÖVZU 3

# İSTEHSALIN İQTİSADİ SƏMƏRƏLİLİYİ

**İctimai istehsalın məqsədi –cəmiyyət üzvülərinin və cəmiyyətin özünün ehtiyaclarınımüxtəlif əmək məhsulları və xidmətlərlə təmin etməkdir.bu məqsədlə nail olmaq ücün ilk növbədə,cəmiyyətin malik oldugu iqtisadi potensialdan tam istifadə olunmalı,ictimai istehsalin iqtisadi səmərəliliyi yüksəldilməlidir.İctimai istehsalın iqtisadi səmərəliliyini düzgün qiymətləndirmək ücün meyarı və göstəriciləri elmi nəzəri və metodoloji cəhətdən dəqiq əsaslandırılmalıdır.Çünki hər hansı bir sosial iqtisadi prosesin kəmiyyət vəkeyfiyyət cəhətlərini özündə tam və dəqiqliklə əks etdirən meyar vəgöstərici olmadan həmin prosesin idarə edilməsi qeyri mümkündür.İstehsalın iqtisadi səmərəliliyini müəyyən edərkən iki növ məsrəfləri:cari və birdəfəlik məsrəflər fərqləndirirlər.Cari məsrəflər müəssisənin il ərzində məhsul istehsalına cəkdiyi bütün xərcləri səciyyələndirir və ona görə də bəzən buna istehsal xərcləri deyilir.Müəssisə miqyasında cari məsrəflərə il ərzində sərf edilmiş bütün canli və maddi olaraq,birdəfəlik məsrəflərə əsas fondların yaradilması vəgeniş təkrar istehsalı ücün istehsalın yeni texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi məqsədinə yönəldilmiş investisiya qoyuluşu şəklində bütün vəsaitləri aiddir.İqtisadi səmərənin ölcüsü bu və ya digər tədbirin səmərəlilik dərəcəsi ilə ifadə olunur.Məsələn,yeni texnikanın tətbiqinin iqtisadi səmərəliliyi vaxt vahidi ərzində(vaxt vahidi kimi il ,rüb,ay qəbul edilə bilər)əldə edilən iqtisadi səmərənin nəticəsinin**

**sərf olunan canlı və maddiləşmiş əməyin kəmiyyətinə nisbəti kimi təyin edilir.Adətən,ictimai istehsalin iqtisadi səmərəlilik meyarı kimi ictimai əmək məhsuldarlıgının səviyyəsi götürülür.**

**Müxtəlif növ məsrəflərin iqtisadi səmərəliliyi istehlak edilmiş ehtiyatlardan istifadə olunması səviyyəsi,istehsalın son nəticələrinin aşkar edilməsi və qiymətləndirilməsi həmcinin optimal variantın secilməsi üçün müəyyən edilir.Lakin ictimai İstesalin səmərəliliyinin müəyyən edilməsində özünün miqyasına,öyrənilmətarixinə,müəssisənin iqtisadi potensialının artırılmasındakı roluna,iqtisadi inkişaf və sosial tərəqqidəki əhəmiyyətinə və s. əlamətlərə görə investisiya qoyulusu əvəz edilməzdir.İnvestisiya qoyuluşunun bilavasitə nəticəsi istehsal gücünun genişləndirilməsi və qeyri-istehsal obyektlərinin işə salınmasından ibarət olduğu halda,onun son nəticəsi-məhsul istehsalının və sənaye xarakterli xidmətlərin həmçinin artmasıdır.**

## MÖVZU 4

## İSTEHSALIN İQTİSADİ VƏ SOSİAL SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ AMİLLƏRİ.

**Müasir şəraitdə istehsalın səmərəliliyinin yuksəldilməsinin əhəmiyyəti kəskin surətdə artmışdır.Yalnız dönmədən yüksələn istehsalın səmərəliliyi əsasında müəssisənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə əlaqədar olan məsələləri həll etmək olar.Bazar iqtisadiyyatına kecid dövründə əsas məsələlərdən biri-sənaye istehsalının səmərəliliyinin artırılmasını təmin etməkdən ibarətdir.Müəssisələrin yeni iqtisadi strategiyasının həyata kecirilməsi yalnız ictimai istehsalın daha da artırılması və onun strukturunun təkmiləşdirilməsi,bazar iqtisadiyyatı strukturlarının yaradılması və inkişafı ,buraxılan rəqabət qabiliyyətliliyinin artırılması sayəsində mümkündür.**

**İctimai istehsalın müntəzəm surətdə yüksəldilməsinə və st-**

**rukturunun təkmilləşdirilməsinə nail olmaq üçün elm və texnikanın ən yeni nailiyyətlərindən istifadə etməklə mövcud müəssisələrin yenidən qurulmasını,genişləndirilməsini və yeni texnika ilə silahlanma səviyyəsinin yuksəldilməsini sürətləndirmək lazimdir.İctimai istehsalın səmərəliliyinin əsas yolları asagıdakılardan ibarətdir:**

**a)canlı və maddiləşmiş əməyə qənaət etməklə ictimai əmək məhsuldarlıgının artımını təmin etmək;**

**b)maddi istehsal sahələrində istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsi hesabına əmək ehtiyatlarından istifadənin səmərəliliyini artırmaq.**

**c)istehsal əsas fondlardan vəmövcud texnoloji maşın və avadanlıqları moderinləşdirmək hesabına istehsal gücündən istifadəni yaxşılaşdırmaq;**

**q)maddi-enerji ehtiyatlarından istifadəninsəmərəliliyini yüksəltmək,məhsulun material və enerji tutumunu azaltmaq,təkrar maddi ehtiyatlardan istifadəni genişləndirmək;**

**d)maddi istehsal sahələrində calışan işçilərin əməyinin düzgün stimullaşdırılmaq,işçilər üçün əlverişli iş şəraitini yaratmaq,onların əməyinin təhlükəsizliyini təmin etmək.**

# MÖVZU 5

# SAHİBKARLIĞIN MAHİYYƏTİ,MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ.

**Sahibkarliq ətrafında təsərrüfat vahidi,müəssisədə planlı istehsalat amilləri,istehsal olunmuş məhsulun və ya xidmətin realizasiyası,müəssisənin və ya onun sahibinin məqsədinə nail olması başa düşülür.Müəssisənin fəaliyyəti onu əhatə edən xarici və daxili amillərdən aslıdır.Xarici amil deyəndə müəssisənin əlaqədar olduğu firmalar,komplektləşdiriçi və digər əlaqələr,məhsulun satılması,informasiya,maliyyə və pullu xidmətlər başa düşülür. Daxili amil dedikdə,buraya müəssisənin daxilində işintəşkili,iqtisadi münasibətlər,işverənlə işalanlar arasındakı əlaqələr,iş rejiminin səmərəliliyi və s.daxildir.**

**Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin müxtəlif növləri ola bilər.Belə bir hal sahibkarlıq fəaliyyətinin təşkilini vəhüquqi tənzimlənməsini müəyyən qədər cətinləşdirir.Sahibkarlıq fəaliyyətini bəzi əlamətlərə görə təsnifləşdirirlər.Adətən,sahibkarlıq fəaliyyəti mülkiyyət mənsubiyyətinə görə -fərdi,kollektiv vəmüştərək sahibkarlığa;fəliyyətinin həciminə görə-kicik,orta və iri sahibkarlığa;fəaliyyət sahəsinə gorə-sənayedə,ticarətdə,nəqliyyatda,kənd təsərrüfatinda və s.həyata kecirilən sahibkarlığa;**

**Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin müxtəlif formalarında istifadə edilir.Bazar iqtisdiyyatı şəraitində öz iqtisadi-təsərrüfat fəaliyyətində ən səmərəli sahibkarlıq formasından istifadə edilməsi daha məqsədə uyğundur.Konkret iqtisadi şəraitdən,təbii,əmək,kapital və**

**intellektual resurslardan səmərəli istifadə etməklə yüksək son nəticələr əldə edilməsini təmin edən sahibkarliq fəaliyyəti səmərəli hesab edilir.**

# MÖVZU 6

# SAHİBKARLIĞIN İNKİSAF MƏRHƏLƏLƏRİ.

**Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişafında "Sahibkarlıq haqqında"Azərbaycan Respublikasının qanunu mühüm rol oynamışdır.Bu qanun Azərbaycan Respublikasında sahibkarliq fəaliyyətinin təşkili prinsiplərini,hüquq və vəzifələrini,onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını,dövlət və digər təşkilatlarla qarşılıqlı münasibətlərini müəyyənləşdirir.**

**Umumiyyətlə,Sahibkar ifadəsi iki sözün birləşməsindən :"sahib"və"kar"sözlərindən əməl gəlmişdir."Sahib"sözü ərəb dili olub "yiyə","mulkiyyətci"deməkdir."Kar"ifadəsi isə fransız sözü olub "fəaliyyət","iş"mənasını daşıyır."Sahibkar"ifadəsini ilk dəfə olaraq Qərb iqtisadiyyatında fransız iqtisadçısı R.Kantilyon(1680-1734)tərəfindən işlədilmişdir.O,mənfəət götürmək məqsədilə digərlərindən məhsulu müəyyən qiymətlə alaraq bazarda özünə xeyirli qiymətə satmağa çalisan adamları sahibkar adlandırmışdır.**

**Sahibkarlıq fəaliyyətinin daha dolğun anlayışının müəyyənləşdirilməsində alman iqtisadçısı V.Zombartın (1863-1941) rolu və əməyi az olmamışdır.O,sahibkarlıq fəaliyyəti qarşısında duran məqsədi iki qrupa:əsas və asılı məqsədlərə ayırmışdır.Onun fikrincə,mənfəət əldə edilməsi sahibkarlıq fəaliyyətinin əsas məqsədi deyil ,ikinci dərəcəli formalaşmasında Avstriya iqtisadçısı Y.Şumperin(1883-1950)də müəyyən xidmətləri olmuşdur.O,sahibkarı yenilikçi adlandıraraq onun əsas vəzifəsi kimi istehsal amillərinin**

yeni kombinasiyasna və beləliklə də,iqtisadi tərəqqiyə nail olmağı irəli sürürdü.

Beləliklə,sahibkarlıq fəaliyyəti haqqında öz fikirlərini söyləyən və ona tərif verən bütün iqtisadçıları fikir eyniliyinə görə aşağıdakı dörd qrupa ayrılır:

Birinci qrup iqtisadçılar sahibkarlıq fəaliyyəti dedikdə,kommersiya ideyasını həyata keçirmək vəmənfəət götürmək məqsədilə iqtisadi risk edən mülkiyyətçini nəzərdə tuturlar.

İkinci qrup iqtisadçıiarsahibkarlıq fəaliyyəti dedikdə,yeni ideyaların yaradılması və mənimsənilməsini,keyfiyyətcə yeni növ məhsulların və texnologiyalarin işlənib hazırlanmasını və onların həyata keçirilməsini nəzərdə tuturlar.

Üçüncü qrup iqtisadçilar qeyd edirlər ki, sahibkarlıq subyektin bazar iqtisadiyyatı şəraitində qanunvericiliyə uyğun şəkildə həyata keçirilib,mənfəət əldə edilməsinə yönədilmiş fəaliyyətidir.

Dördüncu qrup iqtisadçılar sahibkarlıq fəaliyyəti dedikdə,öz fikirlərini reallaşdırmaq və sosial-iqtisadi səmərəyə nail olmaq üçün yeni kombinasiyaları həyata keçirən təsərrüfatçılıq subyektlərinin risklə əlaqədar olan təşəbbüskarlıq fəaliyyətini başa düşürlər.

# MÖVZU 7

# MƏHSUL KEYFİYYƏTİ ANLAYIŞI VƏ GÖSTƏRİCİLƏRİ.

**Məhsulun keyfiyyəti dedikdə,onun müəyyən tələbatını ödəmək üçün yararlılıq dərəcəsini müəyyənləşdirən xassələrin məcmusu başa düşülür.Bütün əmtəələr istehlak dəyərinə,yəni ictimai tələbatı ödəmək qabiliyyəti olan obyektiv xassələrə malik olmalıdır.Məmulatın keyfiyyəti isə həmin tələbatı nə dərəcədə ödəmə qabiliyyətini,yəni onun faydalılıq dərəcəsini ifadə edir.İstehlak dəyəri sərvətin maddi məzmununu əmələ gətirir.İstehlak dəyərinin bəzi növlərini təbiət hazır formada verir,lakin onların əksər hissəsi əmək məhsulundan ibarətdir.**

**Məhsulunun müəyyən tələbləri ödəmək üçün yararlılıq dərəcəsi keyfiyyət göstəriciləri ilə xarakterizə olunur .Bunlar da məhsulun istehlak xassələrinin kəmiyyət tərəflərini özündə əks etdirir.Adətən,sənaye məhsulunun keyfiyyətli olub olmaması onun hazırlanması,istehlakı və istismarı prosesində özünü bürüzə verir.Məhsulun keyfiyyətini qiymətləndirərkən ona müxtəlif aspektlərdə yanaşılmalıdır.**

**Hazırlanma prosesində məhsulun keyfiyyəti dedik də,müəyyənedilmiş standartların,texniki şərtlərin və fabrik zavod normativlərin tələblərinə uyğun gələn elementlər toplusu nəzərdə tutulur.**

**İstehlak prosesində məhsulun keyfiyyəti istehlakçıların tələb və təkliflərinin ödənilməsi dərəcəsini xarakterizə edir.**

**İstismar prosesində məhsulun keyfiyyəti dedikdə,onun texniki-iqtisadi parametrlərinin alıcıların tələblərinə uyğunluq dərəcəsi nəzərdə tutulur.**

**Ümumiyyətlə,sənaye məhsulunun keyfiyyətini qiymətləndirərkən aşağıdakı göstəricilərdən istlfadə edilir:**

**a)təyinat göstəriciləri b)etibarlılıq və uzun ömürlülük göstəriciləri c)texnoloji göstəricilər q)standartlaşdırma və eyniləşdirmə göstəriciləri d)estetik göstericilər e)iqtisadi göstəricilər e)patent-hüquq göstəriciləri.**

**Məhsulun keyfiyyətinin yüksəldilməsi həm istehsalçı müəssisələr,həm də istehlakcılar ücun iqtisadi cəhətdən səmərəlidir.Odur ki, istehsalçı müəssisələr çalışmalıdırlar ki, mümkün qədər daha çox yüksək keyfiyyətli məhsullar buraxsınlar.**

# MÖVZU 8

# MÜƏSSİSƏNİN ƏMƏK RESURSLARI.

**ETT-nin sürətli inkisafı nəticəsində yüksək ixtisaslı kadrlara olan təlabat xeyli artır,çünki müasir istehsal vasitələrindən yalnız yüksək ixtisasa və xüsusi texniki hazırlığa malik olan kadrlar istifadə edə bilərlər.Məsələn,rəqəmli-proqramla idarə edilən dəzgahlarda işləmək proqram qurğusu ilə rəftar bacarığı tələb edir.İstehsalın mexanikləşdirmə və avtomatlaşdıılrma səviyyəsinin yüksəldiyi bir şəraitdə işçilərin mədəni-texniki və peşə ixtisas səviyyəsinə tələb də kəskin surətdə artır.Kadrların peşə-ixtisas hazirlığının əsasını peşə-ixtisas üzrə əmək bölgüsü təşkil edir.Peşə ixtisas əmək bölgusu daha mürəkkəb işləri sadə işlərdən fərqləndirməyə imkan verir.Odur ki peşə ixtisas üzrə əmək bölgüsü dərinləşdikcə yeni peşələr və ixtisaslar əmələ gəlir.**

**Peşə- istehsalın hər hansı bir sahəsindəmüəyyən növ işi yerinə yetirmək üçün zəruri olan nəzəri biliklərin və təcrübi vərdişlərin məcmusundan ibarətdir.Peşənin daxilində ayrd olunur.Deməli, sənət peşədaxili əmək bölgüsünü xarakterizə edir.**

**Sənət-istehsalın konkret sahəsində bu və ya digər işi yerinə yetirmək ücün əlavə nəzəri biliklər və təcrübi vərdişlər tələb edir.**

**İxtisas-müəyyən mürəkkəbliyə malik olan işi yerinə yetirməyə imkan verən nəzəri biliklər və təcrübi vərdişlər kompleksidir.İxtisasın zəruri və ən mühüm ünsürlərindən**

**biri işçinin müəyyən ixtisas üzrə istehsal vərdişinə yiyələnməsidir.**

**Əmək bölgüsü, yeni istehsal növlərinin meydana gəlməsi və EET-nin yeni nailliyyətlərinin istehsala getdikcə daha geniş tətbiqi yeni peşələr və onların daxilində yeni yaranmasına səbəb olur , bir çox peşə və ixtisaslar isə ləğv edilir.Müasir dövrdə fəhlə nəinki hər hansı işi yaxşı yerinə yetirməyi bacarmalıdır,eyni zamanda o,maşin və avadanlıqların konstruksiyasını,istifadə etdiyi xammal və materialların fixiki-kimyəvi xassəiərin və istehsalat texnologiyasını dərindən bilməlidir.Peşə və ixtisasların mənimsənilməsində işçilərin peşə qabiliyyəti mühüm rol oynayır.Peşə qabiliyyəti insanın müəyyən əmək fəaliyyətini xarakterizə edir.**

## MÖVZU 9

## ƏMƏK MƏHSULDARLIĞI ANLAYIŞI.

**Əmək məhsuldarlığı dedikdə,maddi istehsal sahələrində əmək məsrəflərinin səmərəliliyi nəzərdə tutlur. Əmək məhsuldarlığının yüksəldilməsi məhsul vahidi istehsalına əmək məsrəflərinin azaldılması deməkdir.Bunu sayəsində müəssisənin və eləcə də onun struktur bölmələrinin hər işçi hesabı ilə daha çox məhsul istehsal etməyə imkanı olur.Odur ki, əmək məhsuldarlığının yüksəldilməsi istehsaalın həcimnin artırılması və təkmilləşdirilməsinin mühüm şərtdir.**

**Əmək məhsuldarlığının yüksəldilməsi istehsal əsas fondlardan və material enerji ehtiyatlarından daha səmərəli istifadə olunması ilə sıx əlaqədardır.**

**Müəssisələrdə əmək məhsuldarlığının yuksəldilməsi üçün böyuk imkanlar vardır. Əsas məsələ həmin imkanları vaxtında aşkar edib səfərbərliyə almaqdan ibarətdir.Bu isə o deməkdir ki, əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün müəssisələrdə mövcud olan əmək məhsuldarlığının artırılması ehtiyatlarından geniş istifadə olunmalıdır.**

**Əmək məhsuldarlığının artırılması ehtiyatları dedikdə ,bir işçiyə düşən məhsul istehsalının artırılmasi və ya buraxilan məhsul vahidinə iş vaxtı sərfinin azaldılması məqsədilə əməyin məhsuldar qüvvəsinin real imkanlarından tam istifadə olunması nəzərdə tutulur. Deməli ,əməyin məhsuldar qüvvəsi ilə əmək məhsuldarlığının səviyyəsi arasındakı fərq ehtiyatları**

**təşkil edir. Müxtəlif müəssisələrdə əmək məhsuldarlığının artırılmasının müxtəlif ehtiyat növləri vardır.**

**Əmək məhsuidarlığının artırılmasının perspektiv ehtiyatları mövcud istehsalların yenidənqurulması, genişləndirilməsi və texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi, kadrların ixtisas səviyyəsinin artırılması, qabaqcıl istehsalat təcrübəsinin geniş tətbiqi, mövcud maşin və avadanlıqların moderinləşdirilməsi ilə əlaqədardir. Belə tədbirlərin həyata keçirilməsi müəyyən məbləğdə əlavə vəsait tələb edir .Əmək məhsuldarliğının yüksəldilməsi amilləri aşağıdakı üç qrupa ayrılır:**

**1)maddi – texniki amillər**

**2)sosial – iqtisadi amillər**

**3)təşkilati amillər**

**Müəssisələrdə məhsuldarlığının yüksəldilməsinin aşağıdakı yolları vardır:**

**a)Məhsulun əmək tutumunun azaldılması**

**b)Əmək şəraitinin yaxşılaşdırılması**

**c)Əmək və texnoloji intizamın möhkəmləndirilməsi**

**d)Əməyin normalaşdırılmasının təkmilləşdirilməsi**

**q)Qabaqcıl istehsalat təcrübəsinin geniş yayılmasi.**

## MÖVZU 10

## ƏMƏYİN ÖDƏNİLMƏSİ VƏ ONUN MAHİYYƏTİ.

**Muzdlu işçilərin əmək haqqı işverənin hesabat dövründə yerinə yetirilmiş işə görə muzdlu işçiyə pul və ya natura şəklində ödədiyi haqqıdır.O, hesablanmış məbləğ əsasında , yəni vergilər və tutulan digər məbləğlər çıxılmadan hesablanır.Əmək haqqı elə təşkil olunmalıdır ki,o,əməkçi kollektivin maddi marağını edə bilsin.Bu o deməkdir ki, əmək ödənilərkən əməyin şəraitindən , mürəkkəbliyindən , məhsuldarlığından və s.asılı olaraq işçilər arasında müəyyən fərqlər qoyulmalıdır.Əmək haqqı - əməyə görə bölgü qanununun tələblərinin həyata keçirilməsinin əsas formasıdlr.Əmək haqqı təşkil olunarkən aşağıdakı prinsiplər nəzərə alınmalıdır: əməyin kəmiyyət və keyfiyyəyi; əməyin intensivliyi; iş şəraiti; əmək məhsuldarlığı ilə əmək haqqı arasındakı nisbətlər; istehsalın coğrafi yerləşməsi və s.Əmək haqqının nominal ,real, orta aylıq,minimum növlərini fərqləndirirlər.**

**Nominal əmək haqqı - müəyyən iş dövrü ərzində fəhlə və qulluqçuların sərf etdikləri əməyin kemiyyət və keyfiyyətinə uyğun olaraq pul və ya natura şəklində ödnilən əmək haqqıdır;hesablanmış və ələ verilən əmək haqqı fərqləndirilir.**

**Real əmək haqqı maddi nemətlərdə və xidmətlərdə ifadə olunan əmək haqqinin miqdarıdır.Real əmək haqqının artımı nominal əmək haqqının əmtəələrin qiyməti və xidmətlərin tarifi indeksinə nisbəti ilə**

müəyyən olunur.Bu zaman əmək haqqindan tutulmuş vergilərin məbləği cıxılır.

Əhalinin real gəliri – milli gəlirin əhalinin istehlakı ,yaxud yığim üçün istifadə edilən hissəsidir.

Orta aylıq əmək haqqı - müəssisənin hər bir işçisinə görə hesablanan əmək haqqının miqdarını səciyyələndirir.Orta aylıq əmək haqqı əmək haqqı fondunun muzdlu işçilərin sayına bölməklə müəyyən edilir.

Minimum əmək haqqı bütün işləyənlər üçün dövlət tərəfindən müəyyən vaxta qəbul edilmiş minumum əmək haqqıdır.

Əmək haqqı borcları - dedikdə, faktiki olaraq isçilər üçün hesablanmış , lakin bu və ya digər səbəblər üzündən kollektiv müqavilədə nəzərdə tutulmuş vaxtda ödənilməmiş nəzərdə tutulur.Əmək haqqı borclarının yaranma səbəblərindən biri istehsalın həcminin ildən- ilə azalmasından və s. ibarətdir.

Kollektiv işəmuzd əmək haqqı sistemi – briqada formasında əməyin təşkili ilə bağlıdır.Müəssisələrdə təşkil olunan kompleks və ixtisaslaşdırılmış briqadalar aşağıdakı prinsiplər üzrə fəaliyyət göstərirlər:a)bütün briqada üzvülərinin istehsalın son nəticələri üçün maddi məsuliyyət;b)bütün briqada üzvülərinin işişn nəticələrinə görə maddi maraqlandırması;c)ümumi işdə briqadanın hər bir üzvünün istirak etmə və əməyin ödənilmə dərəcəsinin müəyyən edilməsi.

**Müəssisələr əməyin ödənilməsində - əmək məhsuldarlığının artırılmasını, stimullaşdırmağın, elmi – texniki tərəqqinin sürətləndirməyin, məhsulun keyfiyyətini yaxşılaşdırmağın və istehsalın səmərəliliyini yüksəltməyin mühüm vasitəsi kimi istifadə etməyə borcludur.**

## MÖVZU 11

## MÜƏSSİSƏNİN İSTEHSAL FONDLARI.

**Hər bir müəssisə istehsal vasitələri və iş qüvvəsi ilə özünü təmin etdikdən sonra bilavasitə istehsala başlayır.Əmtəə - pul münasibətlərinin hakim olduğu bir şəraitdə istehsal üçün lazim olan əmək vasitələri, əmək cisimləri və iş qüvvəsi əmtəə kimi çıxış edir. Buna görə də müəssisə əlində olan pulla istehsal vasitələri və iş quvvəsi alır.**

**Öz hərəkətində fondlar ardıcıl olaraq üç mərhələdən keçir, formasını dəyişir və özünün başlanğıc formasına qayıdır.Pul forması məhsuldar formaya, məhsuldar forma əmtəə formasına, əmtəə forması isə pul formasına çevrilir.Fondlar öz hərəkətində, eyni zamanda, üç formanın üçündə də olur.İkinci mərhələdə fondlar istehsalda olur, birinci və üçüncü mərhələdə isə tədavül fondu adlanır.**

## MÖVZU 12

## ƏMƏK VASİTƏLƏRİ VƏ İSTEHSAL ƏSAS FONDLAR.

**Əmək vasitələrinin moderinləşdirilməsi – fəaliyyətdə olan əmək vasitələrinin təkmilləşdirilməsi və onlarda əməli dəyişilik aparmaq, qovsaq və hissələriyenisi ilə əvəz etmək, istehsal əməliyyatlarını mexanikləşdirmək və avtomatlaşdırmaq üçün tərtibatlar və cihazlar quraşdırmaqla onların istehsalın müasir texniki-iqtisadi səviyyəsinə cavab verən vəziyyətə gətirilməsi deməkdir.Əmək vasitələrinin moderinləşdirilməsi əsas fondların mənəvi aşinmasını qismən aradan qaldırmağa imkan verir.Əmək vasitələrinin kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması daha mütərəqqi texnoloji proseslərin tətbiqi, istehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılmış axın xəttinə qoşulur, xüsusi texnoloji alət və tərtibatlarla təchiz olunur.**

**Məlumdur ki, maddi nemətlər istehsalı insan əməyinin istehsal vasitələri ilə birləşməsini tələb edir. İstehsal vasitələri istehsal fondları formasında cıxış edərək əmək vasitələrinə və əmək cisimlərinə bölünür. Əmək vasitələrinin köməyi ilə insan bu və ya digər əmək cisiminə təsir göstərir,əmək cismi isə, insan əməyinin təsirinə məruz qalır.Muəssisələrdə istehsal vasitələri əsas və dövriyyə fondlarına ayrılır.**

**Əmək vasitələri məhsulun hazırlanma prosesində müxtəlif rol oynayır.Belə ki, əmək vasitələri istehsal prosesində dəfələrlə iştirak edir.Öz dəyərlərini hazırlanmış məhsulun (işin,xidmətin)üzərinə**

**tədricənaşınma dərəcəsində aslı olaraq hissə-hissə keçirir.Əmək vasitələri istehsal prosesində öz natural formasını saxlayır.**

**İstehsal prosesində iştirak etmə xarakterindən asılı olaraq əsas fondlar istehsal və qeyri-istehsal əsas fondlarına bölünür.İstehsal əsas fondları maddi istehsal sferasında, qeyri-istehsal əsas fondlar isə qeyri-istehsal sahələrində fəaliyyət göstərirlər.EET-nin təsiri altında müəssisələrinin əsas fondları intensiv surətdə təkmilləşir və təzələnir**

**Əsas fondlar – istehsal prosesində bütövlükdə edir, öz dəyərini istehsal olunmuş məhsula hissə - hissə keçirir, istehsal prosesində uzun müddət iştirak edir.Öz formasını uzun müddət dəyişmir.İstehsal binaları,maşınlar, qurğular, avadanlıqlar və digər əmək alətləri əsas fondlara aiddir.**

**İstehsal əsas fondlar istehsalatda iştirakına görə aktiv və passiv hissələrə ayrılır.**

**Beləliklə,istehsal əsas fondların strukturu müxtəlif müəssisələrdə eyni deyildir. Buna elmi- texniki tərəqqi, istehsalın yerləşdirilməsi və təşkili formaları təsir göstərir.**

## MÖVZU 13

## ƏSAS FONDLARIN QİYMƏTLƏNDİRİLMƏSİ.

**Müəssisələrdə əsas fondlar natural və ifadəsində uçota alınır və qiymətləndirilir.Əsa fondların qiymətləndirilməsi onların ümumi həcmini, dinamikasını və quruluşunu, məhsulun maya dəyərini və istehsalın rentabelliyini , köhnəlməsini, kəmiyyətinin dəyişməsini müəyyən etməyə və amortizasiya hesablamalarını həyata keçirməyə imkan verir.Adətən, istehsal əsas fondların dəyərcə qiymətləndirilməsinin üç üsulunu: tam ilkin dəyər, tam bərpa dəyərinə görə qiymətləndirməsi üsullarını as fərqləndirirlər.**

**Tam ilkin dəyərə görə qiymətləndirmə - göstərir ki, əsas fondların qiymətləndirilməsi anında onların tikilməsi, alınması, gətirilməsi və quraşdırılması müəssisəyə necəyə başa gəlmişdir.Müəssisənin balansında əsas fondlar tam ilkin dəyərlə nəzərə alınır, ona görə də o, bəzən balans dəyəri adlanır.Bu üsulla qiymətləndirmənin qüsür cəhəti ondan ibarətdir ki, bu halda əsas fondlar müəssisənin balansında, müxtəlif dövrələrdə əmələ gələn dəyərlə daxil ediliriər, halbuki, xammal və materialların qiymətləri əhəmiyyətli dərəcədə dəyişilir. Beləliklə də bir çox illər ərzində əmələ gəlmiş ilk dəyərə görə qiymətləndirmə əsas fondların mövcud həqiqi dəyərini tam əks etdirmir və amortizasiyanın kəmiyyətini təhrif edir.Əsas fondların ilkin dəyərini hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilir:**

$$Dilk=Qə.f + Nxər + Xqur,$$

**Burda:Qə.f -əsas fondların alınma qiyməti;**

**Nxər –həmin fondların daşınma xərcləri;**

**Xqur –fondların quraşdirilması xərclər.**

**Tam bərpa dəyərinə görə qiymətləndirmə- əsas fondların tam ilkin dəyərinə görə qiymətləndirilməsindəki qüsüru aradan qaldırır.Bu üsulun iqtisadi əhəmiyyəti aibarətdir ki, həmin dəyər fəaliyyətdə olan əsas fondların yeni şəraitdə, mənəvi köhnəlməni və tikinti-quraşdırmada baş vermiş qiymət dəyişiliklərini nəzərə almaqla, yaradılmasını neçəyə başa gəldiyini göstərir.Müxtəlif illərdə işə salınmış əsas fondların qiymətləndirilməsində yeknəsəkliyi təmin etmək məqsədilə həmin fondlar vaxtaşırı yenidən qiymətləndirilir.Əsas fondların tam bərpa dəyəri onun ilk dəyəri ilə mənəvi aşınmasının dəyəri formasında ifadə olunmuş kəmiyyəti arasındakıfərqə bərabərdir.**

**Qalıq dəyərinə görə qiymətləndirmə - hazırkı müddətdə əvvəllərdə istifadə olunmuş əsas fondların dəyərindən hələ nə qədər qaldığını göstərir.Belə dəyər əsas fondların vaxtından əvvəl sıradan çixması zamanı əmələ gələ biləcək itkiləri müəyyən etmək, yaxud moderinləşdirilməsinin iqtisadi səmərəliliyini hesablamaq üçün lazımdır.Əsas fondların qalıq dəyərini hesablamaq üçün aşağıdakı düstürdan:**

**Dqal=Dillk – (Dilk X Nay):100] +Xmod**

**burda:Xmod - əsas fondların əsaslı təmirinə və**

**moderinləşdirilməsinə çəkilən xərclər;**

**Nay – amortizasiya ayırmaları norması,%**

# MÖVZU 14

# AMORTİZASİYA AYİRMALARI, HESABLANMASI VƏ İSTİFADƏ İSTİQAMƏTLƏRİ

**Amortizasiya – istehsal əsas fondların dəyərinin həmin fondların köməyi ilə hazırlanmış məhsulu üzərinə tədricən keçirilməsi, pul vəsaitlərinin məqsədli yığımı və sonradan onların aşınması əsas fondların təkrar istehsalında, bərpasında istifadəsi deməkdir. Bu pul vəsaitləri əsas fondların tam bərpası üçün nəzərdə tutulan xüsusi pul fonduna - amortizasiya fonduna keçirilir. Amortzasiya əsas fondların təkrar istehsalına ictimai zəruri məsrəflərin ölçüsü və fondlardan istifadənin səmərəliliyinin yüksəldilməsində iqtisadi stimul funksiyasını yerinə yetirir.**

**Məlumat üçün qeyd edək ki, “amortizasiya” anlayışı “köhnəlmə” anlayışı müxtəlif məfhumlardır.Köhnəlmə əsas fondların istismar prosesində aşınma dərəcəsini əks etdirir.Amortizasiya isə, qeyd etdiyimiz kimi, əsas iki və mənəvi fondların yeni yaradılan məhsulun maya dəyərinə daxil edilən hissəni ifadə edir . Onların fərqi həmçinin istehsal prosesində yerinə yetirdikləri funksiyaya görə daha aydın təzahür olunur.**

**Hazırda amortizasiya ayırmalarını hesablamaq üçün aşağıdakı iki üsuldan : bərabərlik və sürətləndirilmiş üsullardan istifadə edilir.Bərabərlik üsul istehsal əsas fondların eyni bərabərdə fiziki və mənəvi aşınmasına əsaslanır.**

**Amortizasiya fondu - əsaslı təmir işlərinin və əmək vasitələrinin moderinləşdirilməsinin maiyyələşdirilməsi mənbələrindən biridir. Deməli, əsas fondların bütün xidmət müddəti ərzində amortizasiya ayırmalarının kəmiyyəti həmin fondların yaradılması üçün çəkilən bütün ilk xərcləri , həmçinin onların qismən bərpa edilməsi və moderinləşdirilməsi üzrə məsrəfləri ödəməlidir.Amortizasiya dövründə dedikdə, əsas fondların dəyərinin ödənilmə müddəti nəzərdə tutulur.Bu müddət nə qədər uzun olarsa, başqa şərtlər eyni olduqda, illik amortizasiya ayrılmalarının məbləğ də bir o qədər az olur, qısaldıqda isə - artır.**

**Hazırda amortizasiya ayrılmalarının hesablanması sahəsində müəyyən dəyşiliklər edilmişdir: indi amortizasiya yalnız istehsal əsas fondların əsaslı təmirinə və moderinləşdirilməsinə deyil, həmçinin onların tam bərpasına da ayrılır;əmək vasitələrinin normativ xidmət müddəti həddində amortizasiya amortizasiya ayrılmaları hesablanır; amortizasiya ayırmaları tamamilə müəssisələrin sərəncamında qalır.**

## MÖVZU 15

## MÜƏSSİSƏNİN MƏSRƏFLƏRİ.

**İstehsal xərcləri - məhsulun (işin, xidmətin) hazirlanmasına çəkilən canlı və maddələşmiş əmək məsrəfinin məcmusudur. Əmtəə - pul münasibətləri şəraitində dəyər formasında çıxış edir. İctimai istehsal xərcləri və müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri fərqləndirilir. İctimai istehsal xərclərinə istehlak edilmiş istehsal vasitələrinin keçirilmiş dəyəri və bütün yeni yaradılmış dəyər daxildir. Bu xərclər əmtəə dəyərinə bərabər və qiymətlərin müəyyənləşdirilməsində əsas təşkil edir.**

**Müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri əmtəənin dəyərindən azdır. Bu xərclər məhsulun maya dəyəri formasında çıxış edir; maya dəyərinə isə istehlak edilmiş maddi ehtiyyatlara və işçilərin əməyinin ödənilməsinə çəkilən xərclər daxil edilir. Məhsulun (işin,xidmətin) maya dəyəri istehsal prosesində istifadə olunan təbii ehtiyatların, xammalın, materialın, yanacağın, enerjinin, əsas fondların, əmək ehtiyatlarının qiymətləndirilmiş dəyərini, həmçinin onların istehsalına və satışına sərf edilən digər xərcləri özündə əks etdirir.**

**Bəzən məhsulun maya dəyəri ilə istehsal xərclərini, onun dəyəri ilə qiymətini eyniləşdirirlər. Əslində isə onlar bir – birindən fərqlənirlər. Məsələn, məhsulun maya dəyəriistehsal xəclərindən kəmiyyətcə artıq olur, yəni məhsulun maya dəyəri istehsal xərclərindən əlavə, “istehsaldankənar” xərcləridə özündə əks**

**etdirir. ”İstehsaldankənar” xəərclər dedikdə, məhsulun realizəsi ilə əlaqədar müəssisə xərcləri nəzərdə tutulur. İstehsaldankənar xərclərə aiddir: tara və qablaşdırma xərcləri, məhsulun stansiyaya və ya yola salma körpüsünə daşinması, vaqonlara (gəmiyə) yüklənməsi xərcləri məhsulların realizəsi zamanı onların topdansatışı qiymətlərindən satış təşkilatlarına ödənilən güzəştlərin məbləği və s. İstehaldankənar xərclər xüsusi mühasibat balansında nəzərə alınır və məhsulun tam maya dəyərinə daxil edilir.**

**Məhsulun maya dəyəri və dəyəri arasında həm keyfiyyət, həm də kəmiyyət fərqləri vardır. Məhsulun maya dəyərinin onun dəyərindən kəmiyyətcə fərqi ondan ibarətdir ki, müəssisələrdə yaradəlan mənfəət maya dəyərinin tərkibinə daxil edilmir, həmin məhsulun dəyərinin tərkibinə isə daxil edilir. Məhsulun maya dəyəri ilə onun qiymət arasında sıx qarşiliqlı əlaqə vardır. Məhsulun maya dəyəri onun qiymətinin əsasını təşkil edir.**

**İstehsal xərcləri ya iqtisadi ünsürlər üzrə, ya da kalkulyasiya maddələrinə görə təsnifləşdirilir. Bunlar aşağıdakılardır:**

1) **material xərcləri**
2) **əmək haqqı xərcləri**
3) **sosial ehtiyaclara ayırmalar**
4) **əsas fondların köhnəlməsi(amortizasiyası)**
5) **sair xərclər**

**Məhsulun maya dəyərinin tərkibinə daxil olan xərclər aşağıdakı xərc növlərinə görə də qruplaşdırılır:**

a) birbaşa xərclər
b) dolayı xərclər
c) şərti dəyişən xərclər
d) əsas xərclər
e) əlavə xərclər
f) sadə xərclər
g) kompleks xərclər

Müəssisədə məhsul vahidinin maya dəyərinin aşağı salınmasının planlaşdırılmasında eyni qaydada tətbiq edilir. Bu, maya dəyərinin aşağı salınmasının planlaşdırılması, kalkulyasiyalaşdırılması və uçota alınması üzrə dəqiq hesablamaların aparılmasına imkan verir.

İstehsalın həcmi artdıqca istehsal xərclərinin və məhsulun maya dəyərinin aşağı salınması daha çox əhəmiyyət kəsb edir.

Məhsulun maya dəyırinin aşağı salınması amilləri dedikdə, bu azalmanı təmin edən şərtlər nəzərdə tutulur. Məhsulun maya dəyərinin aşağı salınması amillərinə aiddir: a)istehsalın yeni texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi; b) istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi; c) məhsul həcminin və quruluşunun dəyişilməsi.

## MÖVZU 16

## ƏMƏK CİSİMLƏRİ VƏ DÖVRİYYƏ FONDLARI.

**Dövriyyə fondları - qeyd etdidiyimiz kimi, müəssisənin maddi əşya ünsütlərini elə bir hissədir ki, bunlar hər bir istehsal tamamilə istehlak olunur, öz dəyərlərini birdən birə hazırlanmış məhsulun üzərinə keçirir və istehsal prosesində öz cinsi formasini dəyişirlər.Müəssisələrin (firmaların) dövriyyə fondları daim hərəkətdədir. Buna görə də onlar eyni vaxtda müxtəlif formalarda cıxış edirlər. Müəssisələrin (firmaların) dövriyyə fondları aşağıdakı iki hissədən ibarətdir:**

a) **istehsal prosesinə daxil olmasını gözləyən əmək cisimləri.Bura xammal, material, yanacaq, tara və tara materialları,kənardan satın alınan yarımfabrikalar daxil edilir.**
b) **Artıq istehsal prosesinə daxil edilmiş əmək cisimləri. Bu növ dövriyyə fondları hazır məhsul şəklində özünü büruzə verir.**

**Xammal – dedikdə, hasilat sənayesində və kənd təsərrüfatından alınan və ilk dəfə sənaye emalına verilən məhsullar, məsələn, müxtəlif filizlər,təbii qaz, qeyri-filiz qazıntılar, pambıq, kətan, yun və s. nəzərdə tutulur.**

**Material – dedikdə, artıq müəyyən sənaye emalından keçmiş və yenidən emala veriləcək əmək cisimləri, məsələn, metal prokatı, taxta-şalban, parça və s. nəzərdə tutulur.Əsas materiallar istehsal olunan məhsulun başlıca maddi əsasını təşkil edən materiallardır.Köməkçi materiallar bu və ya digər məhsul**

**istehsalında istifadə olunan,lakin əşyaca onun tərkibinə daxil olmayan əmək cisimlərdir.**

**Müəssisələrdə (firmalarda) dövriyyə fondlarının tərkibinə müəssisənin özünün istehsal etdiyi yarimfabrikatlar, bitməmiş istehsal və yeni məhsulun hazırlanması və mənimsənilməsi, geoloji-kəşfiyyat quyularının qazılmasına, yollar və körpülərin salınmasına, və s. xərcləri daxil edilir.**

**Müəssisələrin (firmaların) belə bir xərcləri də olur ki, bunlar hazırkı dövrdə(ildə, rübdə) sərf edilir. Dövriyyə fondunun ayrı ayrı ünsürləri arasındakı nisbətin faizlə ifadəsi onun quruluşunu xarakterizə edir. Müxtəlif müəssisələrində dövriyyə istehsal fondunun quruluşu bir - birindən istehsal texnologiyasından asılı olaraq xeyli fərqlənir.**

**MÖVZU 17**

# MƏHSULUN SATIŞINDAN ƏLDƏ OLUNAN GƏLİR.

**Müəssisənin (firmanin) gəliri özündə onun illik mənfəətini və digər fəaliyyət növlərindən (məsələn, kommersiya fəaliyyətindən,mənzil-kommunal təsərrüfat fəaliyyətindən, yardimçı təsərrüfatlardan,əmək kollektivinə pullu xidmətlərin göstərilməsindən və s.) əldə edilən vəsaitləri əks etdirir. Gəlirin əsas hissəsini müəssisənin mənfəəti təşkil edir. Deməli, müəssisənin gəliri kəmiyyətcə yalnız onun istehsal-təsərrüfat fəaliyyətindən əldə edilən vəsait deyil,eyni zamanda onun qeyri-istehsal sahələrindən əldə edilən vəsaitləri özündə birləşdirir. Dövlət müəssisələrinin gəlirinin üç növünü: ümumi, təssərüfat hesablı və xalis gəlir növlərini fərqləndirirlər.**

**Müəssisənin (firmanın) ümumi gəliri – onun iş nəticələrini səciyyələndirən mühüm iqtisadi göstericilərdən biridir. Başqa sözlə,müəssisənin ümumi gəliri onun sərəncamına daxil olan pul vəsaitinin əməyin ödənilməsinin vahid fondunun və müəssisənin xalis gəlirinin yaradılmasına yönəldilən hissəsidir.Məhsulun, sənaye xarakterli işlərin və sənaye fəaliyyət balansında olan əsas istehsalın və yardımçı təsərrüfatların xidmətlərinin realizəsindən götürülən qazancdan əmələ gəlir.**

**Bu qazanca, həmçinin müstəqil balansda olan və özünün qeyri-sənaye təsərrüfatına məhsul realizə etməkdən və əmək kollektivinə pullu xidmətlər göstərməkdən götürülən qazancda daxildir.**

**İstehsaldan silinmiş və artıq qalmış əmlakın, əvvəllər alınmış maddi dəyərli malların realizəsindən əldə edilən qazanc müəssisənin ümumi gəlirinin terkibinə aid edilmir ,çünki onlar müəssisə fəaliyyətinin nəticəsi deyildir.Müəssisənin (firmanın) ümumi gəlirindən müəyyən edilmiş miqdarda gəlir vergisi ödənilir, bank kreditlərinə görə faizlər verilir, qalan məbləğ isə müəssisənin sərancamına kecir.**

# MÖVZU 18

## MƏNFƏƏT VƏ ONUN MİQDARINA TƏSİR EDƏN AMİLLƏR .

**Mənfəət - müəssisənin istehsal - təsərrüfat fəaliyyətini xarakterizə edən ümumiləşdirici göstəricilərindən biri olub, onun xalis gəliri formasında cıxış edir. Mənfəət əmtəəlik məhsulun (işin, xidmətin) realizəsindən əldə edilən ümumi gəlirin bir hissəsidir; istehsala çəkilən bütün xərcləri həmin gəlirdən çixdıqdan sonra əmələ gəlir. Müəssisənin (firmanın) illik mənfəətinin məbləğini (Mil) hesablamaq üçün aşağıdakı düstürdan istifadə edilir:**

**Mil=(Qtop-Md)Xnil**

**Burda:Qtop-məhsul vahidinin bazar topdansatış qiymət;**

**Md-həmin məhsulun tam maya dəyəri;**

**Nil-realizə ediləcək məhsulun miqdarı;**

**Verilmiş düstürdan görünür ki,müəssisənin mənfəətinin məbləği realizə olunacaq əmtəəlik məhsulun həcmindən onun bazar topdansatış qiymətindən və tam maya dəyərindən aslıdır. Ona görə də eyni istehsal şəraitində realizə məhsulunun həcmi artdıqca, bazar topdansatış qiyməti yuksəldikcə və maya dəyəri aşağı düşdükcə müəssisənin də mənfəətinin məbləği artacaqdır.**

**Mövcud qaydaya əsasən müəssisənin əldə etdiyi mənfəətin bir hissəsi gəlir vergisi formasında dövlət büdcəsinə ödənilir, qalan hissə isə müəssisənin tam**

**sərəncamına keçərək ondan sərbəst surətdə istifadə edilir.**

**Mənfəətin mövcudluğu istehsalın səmərəliliyini, müəssisənin maliyyə vəziyyətinin yaxşı olduğunu göstərir.Müəssisənin (firmanın) balans, hesablaşma və əmtəəlik məhsul istehsalından əldə edilən mənfəət növləri fərqləndirilir.**

**Müəssisənin (firmanın) əldə etdiyi mənfəətdən istifadə onun müəyyən qaydada bölüşdürülməsini tələb edir. Hazırda müəssisənin sərəncamında qalan mənfəətdən müəssisə tərəfindən buraxılan məhsulun maya dəyərinin tərkibinə**

**daxil edilməyən xərclərin ödənilməsində istifadə edilir.Həmin xərclərə aiddir: reklam xərcləri; müəssisənin təftiş komissiyasının və müəssisə iclaslarının keçirilməsi xərcləri; əlavə məzuniyyətlər üçün ödənişlər; rabitə xidmətinə çəkilən xərclər; sosial məsələlərin həllinə yönəldilmiş xərclər və s.**

**Deməli, mənfəət müəssisənin (firmanın) əmtəə(xidmət) satışında əldə etdiyi gəlirin istehsal xərclərindən artığıdır.**

**Mənfəətin iki mühum funksiyası vardır:**

**1.Firmanın (müəssisənin) pul yığımının(maliyyəsini) həcmini xarakterizə edir;**

**2.Mənfəət firmanın (müəssisənin) istehsal və sosial inkişafına xərclərin maliyyələşdirilməsinin başlıca mənbəyidir.**

**Firmanın (müəssisənin)fəaliyyətinin əsas prinsipi mənfəəti maksimum səviyyəyə çatdırmaqdır.Bu səbəbdən də mənfəət istehsalın efektivliyinin əsas göstəricisi hesab olunur.**

# MÖVZU19

## İSTEHSALIN RENTABELLİYİ VƏ ONUN HESABLANMASI.

Firmanın (müəssisənin) məsrəflərinin effekyivliyini rentabelik göstəricisi ilə müəyyən edilir. İstehsalın rentabelliyi məhsulun rentabeliyindən fərqləndirilir. İstehsalın rentabelliyi firmanın (müəssisənin) vəsaitindən nə dərəcədə səmərəli istifadə edildiyini göstərir. İstehsalın rentabelliyi, müəssisənin (sexin, istehsal sahəsinin, ümumiləşdiriçi göstəricilərindən biridir. Adətən , istehsalın mənfəətin məbləğindən və rentabellik səviyyəsindən istifadə edilir.

Mənfəətin məbləği, qeyd etdiyimiz kimi, müəssisə topdan satış qiyməti ilə məhsulun realizəsindən əldə edilən gəlirlə həmin məhsulun tam maya dəyəri arasındakı fərq kimi müəyyən edilir. Rentabellik səviyyəsi

isə mənfəət məbləğinin istehsal əsas fondların və normalaşdıran dövriyyə vəsaitlərinin orta illik dəyərlərinin cəminə nisbətinin faizlə ifadəsidir.

İstehsalın rentabelliyi iki formada: ümumi və hesablaşma rentabellik formasında çıxış edir. İstehsalın ümumi rentabellik formasında çıxış edir. İstehsalın ümumi rentabellik səviyyəsini müəyyən etmək üçün müəssisənin illik balans mənfəətinin məbləğini (Mbal) istehsal əsas fondlarının orta illik dəyəri ilə (Dəsas) normalaşdırılan dövriyyə vəsaitlərinin orta illik dəyəri (Dn.v)cəminə bölmək lazımdır, yəni

**Rüm=(MbalX100):(Dəsas+Dn.v)**

**İstehsalın hesablaşma rentabellik səviyyəsini müəyyən edilmiş gəlir vergisinin və digər məcburi ödəmələrin məbləği qədər azaldılmış balans mənfəətinin istehsal əsas fondların orta illik dəyəri (Dəsas) ilə normalaşdırılan dövriyyə vəsaitlərinin orta illik dəyəri (Dn.v) cəminə olan nibətini xarakterizə edir və aşağıdakı düstürla təyin edilir:**

**R hes=[Mbal-(Vst+Död) X 100]:(Dəsas+Dn.v)**

**Burda;Vst - mənfəətdənvergistavkası,faizlə;**

**Död - mənfəətdəndigərödəmələrinməbləği;**

**Bazar iqtisadiyyatışəraitindəfirmalarınişininvəziyyətinimüəyyənetməküçündigərgöstəricilərdəndəistifadəolunur.**

# MÖVZU 20

## VERGİ SİSTEMİ. MÜƏSSİSƏNİN MALİYYƏ PLANI.

**Vergilər dövlətin öz vəzifələrini yerinə yetirmək məqsədilə qanunvericilik əsasında fiziki və hüquqi şəxslərdən məcburi qaydada tutulan rüsumlardır.**

**Vergilərin tənzimləyici funksiyası onu ifadə edir ki,dövlət vergi aləti vasitəsilə bütün iqtisadi prosesi tənzimləyir və özünün iqtisadi siyasət tədbirlərini həyata keçirir.**

**Vergilər sistem halında olub fəaliyyət göstərir.Vergi sistemi ölkədə istifadə olunan bütün vergi növlərinin məcmusuna deyilir.**

**Ümumiyyətlə dörd cür vergi sistemindən istifadə olinur:**

1) **Proqressiv vergi sistemi;**
2) **Reqressiv vergi sistemi;**
3) **Qarışıq vergi sistemi;**
4) **Proporsional vergi sistemi;**

**Proqressiv vergi sistemi şəraitində vergi ödəyicilərinin gəlirləri artdıqca gəlirə tətbiq edilən verginin dərəcəsi də artır.**

**Reqressiv vergi sisteminə görə vergi ödəyicilərinin gəlirləri artdıqca tətbiq edilən vergi dərəcəsi aşağı salinir.**

**Qarışıq vergi sisteminə görə gəlirlərin artıb azalmasından asılı olmayaraq vergi faizi ya dəyişmir,ya da müəyyən həddə qədər artır və sonra azalır,yaxud bunun əksinə olur.**

**Proporsional vergi sistemi şəraitindən gəlirlərin artıb azalmsından asılı olmayaraq eyni dərəcəsi müəyyən olunur.**

**Bazar iqtisadiyyatı şəraitində istehsalın idarə edilməsinin iqtisadi vasitələri sistemində maliyyə mühüm yer tutur. Cünki təsərrüfat hesabının əsas prinsipləri – öz xərcini ödəmə, özünü maliyyələşdirmə, işlərin(xidmətlərin) rentabelliyi,maddi maraq və məsuliyyət, manatla nəzarət onun köməyi ilə həyata keçirilir.**

**Müəssisənin maliyyəsi münasibətlər sistemindən ibarət olub,onun vasitəsi ilə müəssisnin pul ehtiyatları yaranır və onlardan istifadə edilir. Bir tərəfdən bunlar pul münasibətləridir,çünki pulun fəaliyyəti (hərəkəti) ilə əlaqədardır;digər tərəfdən isə pul gəlirlərinin və yığımlarının, elecə dəmaliyyə fondlarının formalaşdırılması, bölüşdürülməsi və ondan istifadə edilməsi prosesində müəssisələrdə meydana gələn qarşılıqlı iqtisadi münasibətlər sistemindən ibarət olub, eyni zamanda istehsal-iqtisadi münasibətlərin xüsusi formasıdır.Müəssisə maliyyəsinin əsasını maddi istehsal təşkil edir, cunki burada əmək kollektivinin maddi və mədəni tələbatının ödənilməsinin mənbəyi olan mənfəət yaradılır.Müəssisənin maliyyəsi özündə aşağıdakı münasibətləri əhatə edir: a)müəssisə ilə onun işçiləri arasındakı münasibətlər;b) müəssisə və onun struktur bölmələri arasındakı münasibətlər;c)müəssisə ilə dövlət vədigər özəl təşkilatlar arasındakı münasibətlər;d) dövlət müəssisəsi ilə onun tabe olduğu yuxarı dövlət təşkilatı arasındakı münasibətlər.**

**Müəssisə maliyyəsi aşağıdakı üç əsas funksiyanı yerinə yetirir:**

1) **Müəssisənin istehsal və digər fəaliyyət növlərini pul ehtiyyatları ilə təmin edir;**
2) **Istehsalın və əmək kollektivinin tələbatının ödənilməsi prosesinin fasiləsizliyini təmin etmək məqsədilə pul gəlirlərini bölüşdurmək;**
3) **Müəssisənin istehsal təsərüfat fəaliyyətinə, resursların əmələ gəlməsi, bölüşdürməsi vəistifadəsinə manatla maliyyə nəzarətini həyata keçirir.**

**MÖVZU 21**

# MÜƏSSİSƏLƏRDƏ İDARƏETMƏ MEXANİZMİ.

**İdarəetmə mexanizmi - idarəetmə sisteminin ən mühüm ünsürlərindən biridir.İdarəetmə mexanizmi özündə idarəetmənin ümumi prinsiplərini, metodlarını, məqsəd və vəzifələrini əhatə edir.İdarəetmə mexanizminin göstərilən dörd tərkibi ünsürləri arasında üzvü əlaqə vardır.Bunlar da obyektiv xarakter daşıyır. Müəssisələrin normal inkişaf etdirilməsi istehsalın müəyyən qaydada təşkilini və idarə edilməsini tələb edir.Çünki təsərrüfat sahəsindəki nailiyyətlər özü- öz başına əldə edilmir.Onlar təsərrüfat rəhbərlərinin(menecerlərin) böyük təskilatçılıq və hər bir əməkçinin əzmkar əməyi nəticəsində təmin olunur.Bu baximdan içtimai istehsal idarəetmə sistemi olmadan inkişaf edə bilməz.**

**İdarəetmə əvvəlcədən nəzərdə tutulmuş və dərk edilmiş məqsədə nail olmaq üçün hər hansı konkret obyektə məqsədəuyğun təsiretmə vasitəsidir.**

**Müəssisə (firma) təssərüfat fəaliyyəti məşğul olan sosial – iqtisadi orqanizimdir. Onun idarə olunmağa ehtiyacı vardır.Təsərrüfatın idarə edilməsi təşkilati – iqtisadi münasibətlərin bir formasıdır.Sahibkarlıq fəaliyyəti və biznesin təşkili üçün bu münasibətlərdən istifadə edilir.**

**Təsərrüfatı idarə etmək ictimai əmək prosesinə məqsəd yönlü təsir etmək, onu qaydaya salmaq deməkdir. İdarə etmək əvvəlcədən nəzərdə tutulmuş nətiçələri əldə etmək üçün hər bir işçinin və firmanın təsərrüfat**

fəaliyyətini təşkil etməyi, razılaşdırmağı, tənzim etməyi və nəzarət etməyi nəzərdə tutur.

İdarəetmənin obyekti bilavasitə maddi nemətləri və xidmətləri istehsal edən əmək kollektividir.igər idarəetmə pilələrində olduğuna nisbətən çox cəhətli bir prosesi əhatə edir.Çünki o, müəssisənin bütün fəaliyyət dairəsi ilə əlaqədardır.İdarəetmə prosesi canlı və cansız təbiətin bütün hadisələrinə xas olan bir prosesdir.İdarəetmənin iki əsas növünü: istehsalın idarə edilməsini və texnikanin idarə edilməsini fərqləndirirlər.

İstehsalın idarə edilməsi onun inkişafının obyektiv qanunlarına uyğun olaraq ictimai əmək prosesinə nizamlayıcı təsir göstərməyin konkret tarixi üsuludur,sosial idarəetmənin əsas növlərindən biridir.

Texnikanın idarə edilməsi - texnoloji proseslərin energetika proseslərinin, nəqliyyat proseslərinin, informasiya proseslərinin idarə edilməsini özündə birləşdirir.

Idarəetmə funksiyası dedikdə, ictimai istehsal proseslərinin yerinə yetirilməsinə yönəldilmiş üsul və vasitələrin məcmusu nəzərdə tutulur. Aşağıdakı fuksiyaları var:a) planlaşdirma, kadrlar, maliyyə və uçot, maddi texniki təhcizat, elmi tədqiqat, məhsulun yayılması və ya satışı, qiymətqoyma, istehsal, təşkiletmə, əlaqələndirmə, tənzimləmə, təhliletmə, sosial, marketinq.

# MÖVZU 22

# MÜƏSSİSƏLƏRİN TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN PLANLAŞDIRILMASI.

**Planlaşdırma idarəetmə funksiyasıdır.Planlaşdırmanın nəticəsi öz əksini planlarda tapır.Plan elmi idarəetmənin mühüm vasitəsidir və buna görə də idarəetmə mexanizmində mərkəzi yerlərdən birini tutur. Planlaşdırma fəal idarəetmə prosesi olmaqla xalq təsərrüfatının sahələri və regionlarının, ictimai təkrar istehsalın bütün sferalarının razılaşdırılmış, balanslaşdırılmış inkişafını həyata kecirməyin başlıca formasıdır.Lakin bütövlükdə cəmiyyətin miqyasında tam planlaşdırmanı həyata keçirmək heç kimə nəsib olmamışdır.**

**Planlaşdırma iqtisadi və sosial inkişaf proqramlarının, həmçinin onların yerinə yetirilməsinə dair praktiki tədbirlər kompleksinin işlənib hazirlanmasını nəzərdə tutur.Planlaşdırma idarəetmənin əsas funksiyasıdır, iqtisadi qanunlardan istifadənin başlıca formasıdır.Planlaşdırma idarəetmənin ümumui funksiyası olmaq etibarilə bir obyekt kimi istehsalın cari və uzun müddət ücun vəziyyətini müəyyən edir. Belə bir idarəetmə təsir nəticəsində istehsalın inkişaf sürəti, bu surətin mənbələri, amilləri, təşkil formaları və metodları formalaşır.**

**Planlaşdırma sisteminin aşağıdakı iki növünü: texniki iqtisadi və operativ planlaşdırma növlərini fərqləndirirlər.**

Müəssisənin (firmanın) proqramı müəyyən dövr ərzində onun həyata keçirəcəyi işləri, məqsəd və vəzifələri özündə əks etdirir. Lakin vaxt keçdikcə, istehsal təkmiləşdikcə və yeni əlverişli bazarlar meydana çıxdıqça muəssisənin məqsəd və vəzifələri də dəyişir. Belə bir hal strteji planlaşdırmanın daim təkmilləşdirilməsini və ona yenidən baxılmasını tələb edir.

Müəssisnin məqsəd və vəzifələri onun proqramının əsasında müəyyənləşdirilir. Burada əsas məqsəd müəssisənin mənfəətinin artımını təmin etməkdən ibarətdir.Müəssisənin mənfəətini isə mövcud əmttələrin satışını artırmaq , cari xərcləri azaltmaq və ya bunların hər ikisinə birlikdə nail olmaq çoxaltmaq mümkündür. Satışın həcmini daxili bazarın böyük bir hissəsini ələ keçirməklə və yaxud da yəni xarici bazarlara çıxarmaqla artırmaq olar. Daxili bazarlarda öz payını, yəni satışın həcimini artırmaq üçün müəssisə istehsal etdiyi əmtəələri daima yaxşılaşdırmalı,daha güclü stimullar yaratmaqla məşğul olmalıdır. Yəni xarici bazarlara çıxmaq üçün isə o, rəqabət qabiliyyətli məsullar istehsal etməyi bacarmalıdır.

## MÖVZU 23

## MÜƏSSİSƏLƏRDƏ MARKETİNQ FƏALİYYƏTİ.

**XX əsrin əvvəllərində etibarən iqtisadiyyatın idarə edilməsi sahəsində əldə olunmuş nailiyyətlərdən biri də marketinq sisteminin meydana gəlməsi olmuşdur. Marketinq ingiliscə "market" sözündən olub, lüğəti mənası bazar deməkdir. Lakin "bazar" məfhumu onun mahiyyətini , məzmununu tam ifadə etmir. Marketinq bazar iqtisadiyyatı sistemində idarəetmə fəaliyyəti olub, əsasən mikroiqtisadiyyatın (firmanın,müəssisənin) bazar təşkili ilə məşğul olur**

**Marketinq - ehtiyacların və tələbatların mübadilə yolu ilə ödənilməsinə yönəldilmiş şürlu insan fəaliyyəti növüdür. Bəzən marketinq fəaliyyətini satış və həvəsləndirmə ilə eyniləşdirirlərər. Burada müəyyən oxşarlıq vardir. Belə ,ki satış marketinqlə bilavasitə əlaqədardır .Satış marketinqin çox vaxt o qədər də mühüm olmayan funksiyalarından biridir. Marketinq ehtiyaclar, təlabatlar, tələblər, əmtəə, mübadilə, sövdələşmə və bazar ilə bazar ilə bilavasitəəlaqədardır.**

**Ehtiyac - insanın nəyinsə çatışmadığını duymaq hissidir.Tələbat - fərdin şəxsiyyəti və mədəni səviyyəsinə müvafiq olaraq özünə məxsus formaya düşmüş ehtiyacıdır. Tələb - alıcılıq qabiliyyəti ilə möhkəmləndirilmiş tələabatdır. Əmtəə - tələbatı, yaxud ehtiyacı ödəyə bilən və diqqətin cəlb edilməsi, alınması, istifadə və yaxud da istehlak olunması məqsədilə bazara təklif olunan hər bir şeydir.**

**Mübadilə - arzu olunan obyektin kimdənsə alınması, əvəzində ona hər hansı başqa bir şeyin, məmulatın təklif edilməsi prosesidir.**

**Sövdələşmə - əmtəələrin iki tərəf arasında kommersiya yolu ilə mübadiləsidir.**

**Bazar - mövcud olan və potensial əmtəə alıcılarının məcmusudur.**

**Şəxslərin və sövdələşmələrin sayı artdıqca, bazarların da miqdarı çoxalır. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində bazar heç də satıcıların və alıcıların mütləq gorüşub sövdələşmə apardıqları fiziki yer deyil. Müasir rabitə və nəqliyyat vasitələrinin mövcud olduğu şəraitdə satıcı alıcılarla fiziki əlaqəyə girmədən axşam və yaxud günün hər hansı saatında televizor vasitəsilə malı reklam edib , elə həmin gün, ya da sabahı gün telefonla yüzlərcə sifariş yığıb sonrakı gün poçt vasitəsilə malları istənilən ünvana göndərə bilər.**

**Marketinq müəssisənin işinin "bazar təşkili" forması olmaqla, onun məqsədi mövcud istehsalın bazarın tələbini qabaqlamaq, əmtəələrin satışını surətləndirmək üçün əlverişli şərait yaratmaqla ona sərf olunan "qüvvəni" azaltmağın operativ sistemini yaratmaqdır.Bu daxildir:**

**a)mövcud müəssisə istehsal etdiyi məhsula tədiyyə qabiliyyətli tələbin dinamikası və konyukturasını öyrənmək;**

**b)mövcud əmtəələrin qiymətindəki dəyşikliyi, əvəzləyicisini və hərəkətlərinin sərhədlərini öyrənib təhlil etmək;**

**c)rəqabət mübarizəsinin qeyri-qiymət forması kimi reklamdan istifadə etmək;**

**d) əmtəə çeşidlərini qruplar üzrə planlaşdırmaq;**

**e)Istehlakçılar üçün ticarət xidmətini təşkil etmək;**

**Marketinqin idarə edilməsi müəssisənin müəyyən məqsədlərinə, məsələn, mənfəətin əldə edilməsinə, satış həcminin genişləndirilməsinə, bazarın xüsusi çəkisinin artırılmasına və s. nail olmaq üçün məqsədli alcılarla əlverişli mübadilənin yaradilmasina, möhkəmləndirilməsinə və planlaşdırılması və yerinə yetirilməsi üzərində nəzarət deməkdir. Marketinqin idarə edilməsi prosesi tələbatın idarə edilməsi prosesidir.**

**Marketinq fəaliyyətinin planlaşdırılması dedikdə, müəssisənin hər bir əmtəə markası üçün planların işlənib hazırlanması prosesi nəzərdə tutulur.**

**Müəssisənin marketinq mühiti müəssisədən kənarda kənarda fəaliyyət göstərən və marketinq xidməti rəhbərliyinin məqsədli müştərilərlə əməkdaşlıq münasibətini yaratması imkanlarına təsir edən fəal subyektlərin və qüvvələrin məcmusudur.Müəssisənin iki növ marketinq mühitini: mikro və makromühit növlərini fərqləndirirlər.mikromühit müəssisəyə və müstərilərə xidmət göstərilməsi imkanlarına bilavasitə aidiyyatı olan qüvvələrlə, yəni mal göndərənlərlə,rəqiblərlə və ünsiyyət auditoriyaları ilə**

**əlaqədardır. Makromühit isə makromühitə təsir göstərən geniş sosial planli qüvvələrlə, məsələn, demoqrafik, iqtisadi, təbii, elmi-texniki, siyasi və mədəni xarakterli amillərlə ifadə olunur.**